UOT 44.07.01
https://doi.org/10.59849/2311-8482.2024.3.34

QUMRU ŞƏHRİYAR*

# "ANŞIBAY BATIR VƏ ONUN NƏSLİ" DASTANLAR SİLSİLƏSİ

*"Anşıbay Batır və onun nəsli" dastanları silsiləsi "Qırx Batır" (Qırx Batır) siklizasiyasındakı üç həlqədən birincisidir. Bu silsiləyə daxil olan dastanlar mangit soyundan çıxan qəhrəmanlara həsr olunub və bir çox hallarda tarixi şəxsiyyətlərdir. Tsiklizasiyanın əsas özəyi "Edigey" dastanıdır. Ondan sonra gələn bütün dastanlar onun nəslindən olan insanlara həsr edilmişdir. Beləliklə, Edigey dastanını silsilənin digər dastanlarını birləşdirən əsas halqa hesab etmək olar. Edigeyin özünün də daxil olduğu ilk şəcərə Anşıbay Batırdan başlayır. Ona aid edilən dastanlar öz aralarında siklizasiya əmələ gətirirdi. Bu siklizasiya on epik əsəri əhatə edirdi.*

***Açar sözlər:*** *Tsikilləşmə, "Qırx Batır" (Qırx Batır), Anşıbay Batır, Edigey, Karasay və Kazı, Örək və Mamay, Musaxan, İsmayıl, Tel Ağış.*

**Giriş**

Silsilə dastanlar məsələsi bu günə qədər geniş tədqiqat obyekti olmamışdır. Belə ki, "Koroğlu" dastanının özbək variantı, "Manas" dastanı və s. bu kimi dastanların silsiləyə aid olduqları bilindiyi halda onun haqqında ətraflı araşdırmalar yoxdur. Görünür, bu, silsilələrin əsas mahiyyətinin dərindən öyrənilməməsi ilə bağlıdır. Əksi təqdirdə axı belə zəncirvari şəcərə sisteminin poetik dillə ifadəsi maraq doğurmaya bilməzdi.

Qırx batır dastanlar silsiləsi də, demək olar ki, tədqiq olunmamış bir mövzudur. Bu da, görünür ki, sovet rejiminin qəhrəmanlıq dastanlarına qoyduğu qadağalarla bağlıdır. O qədər də zəngin tədqiqat tarixi olmayan Qırx batır silsiləsi indi-indi elm aləmində diqqəti cəlb edir. Əslində isə silsiləyə daxil olan dastanların hər biri ayrı-ayrılıqda tədqiata cəlb olunmuşdur.

**Əsas təhlil**

Qırx batır silsiləsinin tərkibi də, öz növbəsində, üç silsilədə formalaşır:

1. Anşıbay batır və onun nəsli;
2. Karadön batır və onun nəsli;
3. Müstəqil batırlar haqqında dastanlar.

Birinci silsilə "Anşıbay batır və onun nəsli" adlanır. Bu silsiləyə daxil olan dastanlar aşağıdakılardır:

1. Anşıbay batır;
2. Oğlu Parpariya;
3. Onun oğlu Kuttıkıya;
4. Onun oğlu Edigey;
5. Onun oğlu Nuradin;
6. Onun oğlu Musaxan;
7. Onun oğlanları Orak və Mamay;
8. Orakın oğlanları Karasay ilə Kazı;
9. Janbırşı batır;
10. Tel Aqıs;
11. Er Kökşe;
12. Onun oğlu Er Kosay.

Silsilənin bu qoluna aid olan dastanlardan gətirəcəyimiz bütün nümunələr yalnız qazax variantı əsasında təşkil olunub. Çünki yalnız bu variantda silsiləni tam qurmaq mümkündür.

"Anşıbay batır və onun nəsli" silsiləsinin birinci həlqəsini təşkil edən dastan "Anşıbay batır" (2, s.22-85) adlanır. Dastan noqay tayfasının bir bayraq altında birləşməsindən və noqay-kalmık savaşlarından bəhs edir. Dastanın qısa məzmunu aşağıdakı kimidir:

Ata-anası öləndən sonra meşədə yaşayan Anşıbay çayda ördək, qaz ovlayaraq dolanır. Günlərin bir günü qu quşu gölə qonub paltarını soyunur, qıza çevrilir və Anşıbayla evlənmək istədiyini deyir. O, uçub gedəndən sonra başqa bir qu quşu çaya qonub paltarını soyunur və o da qıza çevrilir. Anşıbaya deyir ki, əvvəlki qu quşu olan qız müsəlman pərisinin qızıdır, mən isə kafir pərisinin qızıyam. Əgər onunla evlənəcəksənsə, məni də almalısan. Anşıbay kimsəsinin olmadığını deyib onlarla evlənə bilməyəcəyini bildirir. Bu zaman hər iki pəri qızı Anşıbaya öz elinə gedib hər kəsdən yardım istəməsini təklif edirlər. Ona deyirlər ki, əgər el-obası ona yardım etməsə, o, cənubda bir dağın başında bitən

tək ağaca dəsmal bağlasın və altında oturub gözləsin. Onlar yerə qara bir şey atacaqlar. Anşıbay pəri qızlarının dediyi kimi edir, qızlar yerə qara bağlamada qızıl atırlar. Anşıbay o qızıllarla həmin ağacın altında iki ağ ev tikir, iki qızı da alır. Noqayları bir bayraq altında birləşdirərək onun düşmənləri üzərində hər zaman qələbə çalır. Noqay xalqını bir yerə yığıb hündürlüyü göyə dirənən qala tikdirir. Dastanda Anşıbay pirin oğlu adlandırılır.

"Anşıbay batır və onun nəsli" silsiləsinin ikinci həlqəsini "Parpariya" (2, s. 86-121) dastanı təşkil edir. Əslində Anşıbayın oğlu Baba Tuklas Şaştı Əzizdir, lakin onun haqqında qazax ədəbiyyatında çoxlu sayda müxtəlif əfsanə və rəvayətlərin olmasına baxmayaraq, heç bir dastan yoxdur. Ona görə də silsilə "Parpariya" dastanı ilə davam edir. Qeyd edək ki, Edigeyin şəcərəsi ilə bağlı göstərilən bəzi yazılarda Baba Tuklas Şaştı Əzizin gah Anşıbayla, gah da Parpariya (9, s. 24) ilə eyni adam olduğu göstərilir. Dastanın bəzi variantlarında o, Barkaya və ya Bierperie şəklində təqdim olunur.

"Parpariya" dastanının qısa məzmunu aşağıdakı kimidir:

Baba Tukti Şaştı Aziz oğlu Parpariyaya babası Anşıbay kimi kalmıklara heç vaxt yenilməməyi və onlardan intiqam almağı nəsihət edir. Parpariya gedib babası Anşıbaydan xeyir-dua aldıqdan sonra kalmıklar üzərinə yürüş edir, zalım Şamakanı və atası Şaştöbəni öldürüb noqay xalqını əsirlikdən azad edir. Bu dastanın içərisində Anşıbaydan da bəhs olunur. Burada Anşıbay özünün kalmıklar üzərindəki qələbəsindən söz açır.

"Anşıbay batır və onun nəsli" silsiləsinin üçüncü həlqəsini "Kuttıkıya" (2, s. 122-133) dastanı təşkil edir. Dastan Kuttıkıyanın kalmıklarla savaşından bəhs edir. Burada Parpariyanın da adı çəkilir. Dastanda Kuttıkıya kalmıklarla dəfələrlə döyüşə girir və qalib gəlir. Hər dəfə döyüşə gedəndə arvadı onların övladının olmamasından, ərinin yoxluğunda tək-tənha qalmasından şikayət edir. Bu hadisələr öz davamını "Edigey" dastanında göstərir. Burada artıq Kuttıkıyanın oğlu olur.

"Anşıbay batır və onun nəsli" silsiləsinin dördüncü həlqəsini "Edigey" (2, s. 134-183) dastanı təşkil edir. Kuttıkıya artıq burada qarşımıza kasıb biri olaraq çıxır. Dastanın qısa məzmunu aşağıdakı kimidir:

Kuttıkaya Toxtamış xanın Kuvkanat adlı quşunu bəsləyir. Satemir adlı kalmık Kuttıkıyanın atası Parpariya ilə dost idi. Kuttıkıya Kuvkanat quşunun yumurtasından birini Satemirə verir. Toxtamış xan bundan xəbər tutanda Kuttıkıyanın başını kəsir. Bu zaman onun arvadı hamilə olur. Uşaq dünyaya gələndən sonra qadın onu Jılkıbaya verir. Jılkıbay uşağa Edigey adını verərək öz oğlu ilə birlikdə böyüdür. Bundan xəbər tutan Toxtamış Jılkıbaydan Edigeyi onun hüzuruna gətirməsini əmr edir. Jılkıbay Edigeyin əvəzinə öz oğlunu gətirir. Toxtamış o saat qılıncı çəkib onun başını kəsir. Dərdli ata oğlunun cansız cəsədini və kəsilmiş başını götürüb basdırır. İllər sonra o, arvadı ilə oturub mal-mülkünün sahibsiz, özlərinin isə yalnız qaldığını deyəndə Edigey onları eşidir və Jılkıbaydan soruşur ki, axı mən varam, niyə elə deyirsiniz? Onda Jılkıbay Edigeyə Anşıbaydan, Parpariyadan və atası Kuttıkıyadan danışır. Edigey gedib əsl anasını da gətirib Jılkıbayın yanına qoyur və Toxtamışdan intiqam almaq üçün gedir. Toxtamışı öldürür, Jılkıbayı onun böyük qızı ilə evləndirir və taxtında oturdur. Jılkıbayın səksən yaşı olanda bu qadından iki oğlu olur. Sultan və Mendi. Edigey isə dağlara çəkilib noqay xalqının azadlığı uğrunda kalmıklarla mübarizə aparır.

"Anşıbay batır və onun nəsli" silsiləsinin beşinci həlqəsini "Nuradin" dastanı təşkil edir. Əvvəla onu qeyd edək ki, "Nuradin" "Edigey" kimi bir sıra türk xalqlarında müxtəlif variantları olan dastandır. Dastan silsiləsinə daxil olan "Nuradin" (2, s.184-227) dastanında qəhrəman noqayların yaşadıqları əraziləri genişləndirmək məqsədi ilə kalmıklarla, qızılbaşlarla və digər xalqlarla müharibə edir. Bu, tarixi kökləri olmayan epik yaddaşın folklordakı təzahürüdür. "Nuradin" dastanının qısa məzmunu aşağıdakı kimidir:

Nuradin ındıs və kalmıklarla döyüşmək üçün atasından icazə alır. Atası ona icazə verir, amma deyir ki, əgər çətinə düşsən, bizim atamız Baba Tuklas Şaşlı Əzizi çağır. Nuradin döyüşə gedir, uzun sürən müharibələrdən sonra ındıs və kalmıklara qalib gəlir. Kalmık xanı Tarkasın qızı Jemilhan qoşun toplayaraq Nuradinə qarşı çıxır və məğlub olur. O, qələbə ilə geri qayıdıb taxta çıxır. Bir müddətdən sonra qızılbaşlar yaşayan məkana getmək qərarına gəlir. Elin ağsaqqalları noqay xalqının yaşamağa geniş ərazilərinin olduğunu, nəinki qızılbaşların, heç kalmıkların da bu ərazilərə gəlməyəcəklərini desələr də, Nuradin onları dinləmir, Qızılbaş hökmdarı Şappaz xanla döyüşə gedir. Bütün yol boyu atı Şubarla söhbət edən Nuradin yolda iyirmi nəfər qızılbaş qarovuluna rast gəlir. O, bir oxla beş nəfəri öldürür. Qüvvələri bərabər olmayan uzun-uzadı müharibədə Şappaz xana qalib gəlir və o qaçır. Nuradin bir qızılbaşdan onun yerini soruşur. O da qamışlığa qaçdığını deyir. Nuradin qamışlığı yandırır. Şappaz xan oradan çıxmaq məcburiyyətində qalır. Ona nə istəyirsə, verəcəyini vəd edir və

evində üç gün qonaq edir. Beləcə, onlar dostlaşırlar. Nuradin geri qayıdanda onu ata-anası qarşılayır. Səfərə gedəndən sonra onun bir oğlu olduğunu və adını Musa qoyduqlarını deyirlər.

Dastanın bu şəkildə inkişafı dastançılıq ənənəsi üçün tipik hadisədir və tarixi aspektdə tamamilə anaxronik xarakter daşıyır. Tarixdən məlumdur ki, Nuradin 1440-cı ildə vəfat edib. Kalmıklar Orta Asiyada XV əsrdən görünmələrinə baxmayaraq, XVII əsrdən etibarən noqaylarla ciddi şəkildə toqquşmalar yaşayıb. 1634-cü ildə noqaylar kalmıkların istilasına uğrayıblar. Qızılbaşlara gəldikdə isə onlar Orta Asiyaya XVI-XVII əsrlərdə – Şah İsmayılın dövründən etibarən onun varisləri də daxil olmaqla yürüş ediblər. "XVI əsrdən başlayaraq Orta Asiya xalqlarının epik hekayələrində kalmık və qızılbaşlar rus dastanlarında tatarlar kimi bu xalqların tipik düşməninə çevrilir. Daha sonralar epik ənənə məşhur tarixi qəhrəmanın adına öz düşmənlərinə qarşı döyüşlərdə şablon xarakter daşıyan igidlikləri şamil edir" (5, s. 397).

"Anşıbay batır və onun nəsli" silsiləsinin altıncı həlqəsini "Musaxan" (2, s. 228-255) dastanı təşkil edir. Dastanın qısa məzmunu aşağıdakı kimidir:

Musaxan üç dəfə kalmıklar üzərinə yürüş edir və hər dəfə də qələbə ilə qayıdır. Birinci döyüşdə o, on beş yaşında qırx nəfərlə kalmık xanı Kozan xanın oğlu Kosım xanla vuruşur. Təkbətək döyüşdə Musaxan Kosın xana qalib gəlir, onun başını kəsir, ordusunu isə darmadağın edir. İkinci döyüşdə min nəfərlə Kosımın qardaşı Ospanın üzərinə yürüş edir və üç günlük ağır döyüşdən sonra Ospanın ordusuna qalib gəlir. Sonuncu döyüşündə Musaxanın Balkan torpaqlarına qədər gedib çıxmasından bəhs olunur. Beş yüz nəfərlik ordu ilə o, kalmık xanı Asanazır xanı döyüşdə məğlub edir, başını kəsib ordusunu darmadağın edir.

"Anşıbay batır və onun nəsli" silsiləsinin yeddinci həlqəsini "Orak ilə Mamay" (2, s. 255-291) dastanı təşkil edir. Qeyd edək ki, "Orak, Mamay, İsmayıl və onların ataları Musaxanın ölümündən sonra Noqay Ordasındakı qanlı ailə münaqişəsi Noqay silsiləsində mərkəzi yerlərdən birini tutur" (5, s. 400). Dastanın qısa məzmunu aşağıdakı kimidir:

Orak ilə Mamay uşaq yaşlarında yolun kənarında oynayırlar. Kozan adlı kalmık xanı "Anşıbayın soyundan mənə bir nəfər tutub gətirin" deyərək 300 nəfərlik bir dəstəni Musaxanın torpaqlarına göndərir. Dəstə yolun kənarında oynayan Orakla Mamayı tutub Kozan xana gətirir. O da hər ikisini zindana salır. Uzun müddət zindanda qalandan sonra bir gün Kozan xan saray müğənnisi Birin-Şairlə Mamay arasında mahnı yarışı keçirmək qərarına gəlir. Əgər Mamay qalib gəlsə, onu və qardaşını azad, yox əgər Birin-Şair qalib gəlsə, onları edam edəcəyini söyləyir. Bu yarışda Mamay qalib gəlir və Kozan xan onları azad edir. Onlar geri qayıdanda Musaxanın onları əsirlikdən xilas etmək üçün qırx noqay batırı göndərdiyini görürlər. Orak onlarla birlikdə geri qayıdıb intiqam almaq istəyir. Onlar geri qayıdırlar və şəhərin divarları arasında 18 gün davam edən qızğın döyüş başlayır. Təkbətək döyüşdə Orak Kozan xana qalib gəlir və onun başını kəsir. O zaman Orakın 8 yaşı var idi. Bundan sonra Orak 35 batırla kalmık hökmdarı Oquz xanın 70000-lik qoşunları üzərinə yürüş edir. Qardaşı Mamay ona yardım etməyi təklif etsə də, o, qəbul etmir, qoruyucu Edigeyi, müqəddəs Baba Tuklası yardıma çağırır. Bu zaman şərq tərəfdən buludların arasından bir əjdaha çıxıb bütün qoşunu darmadağın edir. Bunu görən Oquz xan huşunu itirir, Orak isə onun başını kəsir. Xalq öz qəhrəmanlarının geri dönməsini sevinclə qarşılayır.

"Anşıbay batır və onun nəsli" silsiləsinin səkkizinci həlqəsini "İsmayıl" (5, s. 400-402) dastanı təşkil edir. Dastan Musaxanın İsmayıl adlı oğlunun bütün qardaşlarını və onların oğlanlarını öldürərək taxta çıxmasından bəhs edir. Bu, silsilənin içərisində yeganə dastandır ki, oğul öz nəslinə xüsusi amansızlıqla, qəddarlıqla yanaşır. Dastanın sonunda göstərilir ki, İsmayıl Musaxanın ocağında sağ qalan yeganə kişi olaraq taxta sahib olur. Orakın arvadı bilir ki, onun əri də daxil olmaqla nəsildəki bütün kişiləri İsmayıl öldürüb, amma qorxusundan səsini çıxara bilmir və gecə ilə caninin əlindən yaxa qurtarmaq üçün Orakdan olan iki kiçik oğlunu – Karasay və Kazını da götürüb atasının yanına qaçır. İsmayılın hökmranlığı altında noqayların ağır günləri başlayır.

"Anşıbay batır və onun nəsli" silsiləsinin doqquzuncu həlqəsini "Karasay və Kazı" (2, s. 292-345) dastanı təşkil edir. Dastan Orakın öldürülməsi ilə başlayır. Dastanın qısa məzmunu aşağıdakı kimidir:

Orakın ölümündən sonra uşaqları Karasay, Kazı və qızı Kıybat, arvadı və anası Kara-ulöklə birlikdə ehtiyac içərisində yaşayırlar. Karasay yetimlikdən və kasıblıqdan şikayətlənərək intiqam almaq üçün kalmıklarla döyüşmək istəyir. Görür ki, atasının Kabankulak atı çox yaşlıdır və döyüş üçün yararsızdır. O zaman qoca batır Er-Gökçenin Tərlan atını götürür və özünü qırx noqay batırı ilə kalmıklar üzərinə yürüşə çıxan Edil xana yetirir. Bu döyüşdə Edil xan əsir düşür, Karasay onu azad

edə bilmir. Edilin bacısı Kanziya Musanın yurduna gələrək ac-yalavac, çılpaq qalmış Kazını tapıb ondan yardım istəyir. Kanziya onu geyindirib, yedirib qardaşı Karasay və qırx batıra yardıma göndərir. Kondıker xanın şəhərinin yaxınlığında iri qara daşın altında Kazı atası Orakdan bir məktub tapır. Orak orada yazır ki, o, yeddi dəfə Kondıkerin şəhərini ələ keçirmək istəyib və hər dəfəsində də məğlub olub. Şəhərə yalnız mağaradakı yeraltı keçidlə daxil olmaq olar. Kazı qırx batırla şəhərə daxil olur, kalmıkları darmadağın edir, Edil xanı azad edir. Bir müddətdən sonra kalmıklar yenidən noqaylara hücum edir. Nənələri Kazının döyüşə getməsini məsləhət bilir. Deyir, əgər Kazı məğlubiyyətə uğrasa, böyük qardaşı ona yardıma gedər. Döyüş başlayır və kalmıklar çoxlu itki verirlər. Kalmık xanı Batır xan biləndə ki, bu balaca qardaşdır və hələ bunun böyük qardaşı da var, o, öz qoşunu ilə birlikdə təslim olur. Kazı vətəninə qələbə ilə qayıdır.

"Tel Aqıs" (5, s. 409-410) dastanı "Anşıbay batır və onun nəsli" silsiləsinin onuncu həlqəsini təşkil edir. Əslində Tel Aqıs obrazına ilk dəfə "Musaxan" dastanında rast gəlirik. Xüsusi qəhrəmanlığı və yurd sevgisi ilə xarakterizə edilən bu obraz "İsmayıl" dastanında ailə münaqişəsinin mərkəzi fiqurlarından biri rolunda çıxış edir.

"Tel Aqıs" dastanı silsiləyə daxil olan dastanlar sırasında mövzusunun müstəqilliyi ilə özündən əvvəlkilərdən ciddi şəkildə fərqlənir. Dastan döyüş səhnələri ilə zəngin olsa da, süjet xətti əsasən məhəbbət üzərində qurulmuşdur. Dastanın qısa məzmunu aşağıdakı kimidir:

Kalmık xanı Beqen xanın üzərinə yürüşə gedəndə Tel Aqısın 17, atası Janqbırşının isə 70 yaşı var idi. Əvvəlcə atası özünün yeganə oğlunu bu yürüşə buraxmaq istəmir, lakin sonradan aralarında İsmayıl da olmaqla Musaxanın 30 oğlunun müşayəti ilə yola salır. Tel Aqıs Beqen xana qalib gələrək onun başını kəsir. Bu hadisədən bir qədər sonra Janbırşı oğlunu Mamaya tapşıraraq dünyasını dəyişir. Tel Aqıs Mamayın bacısı Ak-Bilek-Sulu ilə evlənmək istəyir, lakin Musaxanın Mamaydan başqa digər oğlanları bu izdivaca razılıq vermir, xüsusilə Kalu və Sarı ("Orak və Mamay" dastanında Kalu Orakın qatilidir) ilə aralarında münaqişə başlayır. Vəziyyətin belə olduğunu görən Mamay Tel Aqısa Ak-Bilek-Sulunu da götürüb Krım noqaylarının yanına qaçmağı məsləhət görür. Tel Aqıs Mamayı dinləyib Krım noqaylarının yanına qaçıb Asan-Kayqadan yardım istəyir. Asan-Kayqa da aralarında Sapra jıraunun (Sıpıra jırav) da olduğu Krımın qırx batırı ilə birlikdə Tel Aqısı və Ak-Bilek-Sulunu müdafiə edərək Musaxanın oğlanlarının üzərinə qoşun yeridir. Bu zaman Sapra jırau məsələni sülh yolu ilə həll etməyi təklif edir. Hər iki tərəf təkliflə razılaşır, hamı Tel Aqısın auluna gedir. Beləliklə, Sapra jırau Janqbırşı ilə Musaxanın ailəsini barışdırır, Kıybat ilə Tel Aqısı evləndirir.

Bu, Qırx batır silsiləsindən yalnız Anşıbay və onun əslinə aid olan on dastan haqqında qısa məlumat idi. Göründüyü kimi, silsilənin həlqəsi elə zincirvari şəkildə toxunub ki, o dastanlardan biri digərinin davamı olduğu aşkardır.

Bu silsilənin əsas bağı, "Edigey" dastanıdır. Bütün hadisələr onun şəcərəsinin ətrafında baş verir. V.V.Trepavlov silsiləni "Şəcərə" adı altında təhlil edərək yazır ki, onun "ilkin həlqəsi, şübhəsiz ki, noqay aristokratiyasının əcdadı hesab edilən Edige haqqında dastan idi" (8, s. 24). Amma yuxarıda da göründüyü kimi, "Edigey" dastanı silsilənin dördüncü həlqəsini təşkil edir. Ona qədər "Anşıbay", "Parpariya" və "Kuttıkaya" dastanları var. Buna baxmayaraq, V.V.Trepavlov "Edigey" dastanını "ilkin həlqə" adlandırır. A.Karatayev isə haqlı olaraq bu silsilənin ən başında "bütün batırların atası Anşıbay"ı görür (10). Görünür, V.V.Trepavlov Edigeyin özündən əvvəlki əcdadlarının mifik qəhrəman olduqlarını nəzərə alaraq yuxarıdakı fikrini irəli sürmüşdür.

Burada bir amil də diqqətçəkicidir. Belə ki, "Anşıbay", "Parpariya" və "Kuttıkaya" dastanları passif fonda mövcud olan dastanlardır. Silsilədən kənarda, demək olar ki, heç bir variantı mövcud deyil. Belə olan halda daha aktiv fonda mövcud olan Edigey haqqında dastan birinci yerdə durur. Bu zaman da onu şəcərənin ilkin həlqəsi hesab etmək mümkündür. Qeyd edək ki, silsilədən kənarda biz Edigey haqqında dastanların 80-dən çox variantını müəyyənləşdirmişik.

Edigeyin ailəsi haqqında ətraflı məlumat olmasa da, oğlanlarından ən məşhurları Mənsur (ölüm tarixi 1427), Qazi (və ya Kazı, ölüm tarixi 1428), Nauruz, Nuradin (ölüm tarixi 1440), Key Kavad, Mübarək şah və Sultan Mahmud olduğu bilinir. Amma silsilədə Edigeydən sonra yalnız Nuradinin adı çəkilir və məhz ona dastan həsr olunub. Amma tarix səhnəsində onun digər oğulları da ən azı Nuradin qədər aktiv şəkildə fəaliyyət göstəriblər. Silsilədə isə onun oğlu Qazi və ya Kazı isə şəcərənin doqquzuncu həlqəsində dura bilir.

Tatar alimi M.Əhmədcanov Edigeyin övladları da daxil olmaqla yaratdığı soy şəcərəsində şəcərənin başında "Kotlı-Kıya Köçek"in (3, s. 60) durduğunu göstərir. V.Jirmunski göstərir ki, "epik ənənəyə uyğun olaraq və hətta ola bilsin ki, onun təsiri altında Əbulqazi İdigenin Kutlu Kıyanın oğlu

olduğunu yazır" (4, s. 364). Macar türkoloq S.Kara Devid isə dastanın qazax və noqay variantlarındakı şəcərəsini aşağıdakı şəkildə təqdim etmişdir: "Angšïbay=Baba Tükti-šaštï aziz – Par-Parïya (bəzi variantlarda Barkaya) – Kuttï-Kïya – Edige" (9, s. 24). Anşıbayın oğlu Baba Tuklas Şaşlı Aziz, onun oğlu Parpariya, Parpariyanın oğlu Kuttu Kıyadır. Kuttı Kıyanın da iki oğlu məlumdur – İsa və Edigey. S.Kara Devid, eyni zamanda A.Sikaliyevə istinadən noqay variantında: "Bar-Kaya=Baba Tükles – Kutlï-Kaya – Edige" (9, s. 24) olduğunu göstərir.

Edigeyin nəsil şəcərəsi haqqında məlumat verən M.Əhmədcanov yazır ki, "İdik bəyin (Edigey nəzərdə tutulur – Q.Ş.) mənsəbi (soyu – Q.Ş.) haqqında rəvayət belədir: Kəab bin Qasım bin Məhəmməd bin Əbubəkr əs-Sıddık Rəsulallah yetişir deyirlər. Tarixi-cihan .....bu ildir... Kutlukaya Toxtamış xanın quş bəyi idi, demişlər. Çindan (cin – Q.Ş.) qızla nikahlandı. Edigey ondan dünyaya gəldi. Süd ilə dar alıb (qidalanıb, güc-qüvvət alıb – Q.Ş.)" (3, s. 61). Bu mətn qədim tatar türkcəsində yazılıb. Orijinal mətni əbcəd hesabı ilə hesabladığımız zaman bu, Edigeyin doğum tarixini göstərir. Burada bir də diqqəti "rəsulallah yetişir" ifadəsi cəlb edir. Qeyd edək ki, Edigeyi bəzən xalq arasında "rəsullallah" (3, s. 61) adlandırırdılar. "Süd qüvvəti ilə dar alıb" ifadəsi isə dastanın bir çox variantlarında Edigeyi itin əmizdirdiyinə işarə edildiyini düşünürük. Dastanın bəzi variantlarında Edigeyi it əmizdirib: "Kutlukaya oğlunu götürdü. Uşaq ağlayıb sakitləşmək bilmirdi. Kutlukayanın yanı balalı bir iti vardı. Gördü ki, uşaq sakitləşmək bilmir, o zaman Kutlukaya iti uşağa əmdirdi. Bir müddət uşaq iti əmərək yaşadı. Sonra it uşağı əmdirmədi" (1, s. 166).

Bir qədər əvvəldə Edigeyin oğlanları haqqında məlumat vermişdik. Qeyd etdiyimiz kimi, onun oğlanlarından ən məşhuru Mənsur, Qazı, Nauruz, Nuradin, Key Kavad, Mübarək şah, Sultan Mahmuddur. Mənsurun Teymur və Din Sufi adında iki oğlunun olduğu göstərilsə də, Edigeyin Mənsur və Nuradini çıxmaq şərtilə başqa oğlanlarından olan nəvə-nəticələri haqda ətraflı məlumat yoxdur.

Nuradinin Abbas və Vakkas adlı iki oğlunun olmasına baxmayaraq, tarix səhnəsində nəvə-nəticələri daha çox görülmüşdür. M.Mexovski Nuradinin oğlu Vakkasın (Okas) 30 oğlunun (6, s. 92-93) olmasından xəbər verir. Bunun epik yaddaşdakı folklor mübaliğəsi olduğunu düşünürük, çünki salnamələrin verdiyi məlumata görə, "Vakkasın üç oğlu var: Musa, Yamqurçi, Alsan" (5, s. 436) və elə Noqay Ordasının sonrakı taleyində də tarix səhnəsində bu üç ad daha çox çəkilir. Qazax epik geneologiyasında adətən Vakkasın adı çəkilmir, onun oğlu Musa xan isə Nuradinin oğlu kimi təsvir edilir. Mənbələr göstərir ki, "Musa ilə Yamqurçi Vakkasın eyni qadından olan övladlarıdır" (5, s. 436). Bir çox hallarda onların adları qoşa çəkilsə də, "Musaxan" dastanının N.Vasilyev variantında onlar möhkəm dostdurlar, üstəlik Yamqurçi – Janqbırşi türkməndir. Yamqurçinin də dörd oğlu var: Urasla, Aqış, Kuquş, Alaç. Alaçın adına "1489-1508-ci illərə aid tarixi sənədlərdə, diplomatik danı*şıq*larda" (5, s. 436) rast gəlinsə də, Aqış "Musaxan" dastanında Janqbırşının oğlu Tel Aqıs şəklində qarşımıza çıxır. Eyni zamanda "Nuradin" dastanının qazax variantında da Nuradin atasından səfərə çıxmaq üçün icazə alanda atası ona Tel Şubar atla getməsini məsləhət görür.

Bundan başqa, Musanın oğlu Alcagirin də tarix səhnəsində üç oğlunun – Kelmambet, Urak və Qazının görünməsinə baxmayaraq, Urakın adı daha çox səslənir və onunla da bağlı əfsanə və rəvayətlər mövcuddur. Diplomatik danışıqlarda və yazılı mənbələrdə tez-tez adı çəkilən Urakın 1538-1540-cı illərdən sonrakı yazılarda adına rast gəlinmir. Ölümü ilə bağlı heç bir məlumatın olmamasına baxmayaraq, alman səyyah A.Oleariy 1636-cı ildə yerli sakinlərin dilindən Urakın ölümünü əks etdirən əfsanə topladığını deyir: "Sentyabrın 3-də sol tərəfdə Eruslan çayını (Saratov və Volqaqrad bölgəsindən axan çay, Volqanın sol qolu – Q.Ş.) və sağda, 150 metr məsafədə dəyirmişəkilli Urakov dağının qarşı tərəfini gördük. Yerli sakinlər dedilər ki, bu dağ öz adını kazaklarla döyüşən, döyüş meydanında həlak olan və burada dəfn olunan tatar hökmdarı (knyaz) Urakın adından götürmüşdür" (7, s. 336). Folklor mətnlərində Urakın öldürülməsi Kalunun adı ilə bağlıdır ki, V.Jirmunski onun "qardaşı Kelmambetin adı ilə oxşar olduğunu" (5, s. 448-449) qeyd edir. Ümumiyyətlə, "Qırx batır" silsiləsinə və Edigeyin şəcərəsinə daxil olan batırlarla bağlı epik mətnlər V.Jirmunskinin təbirincə desək, "bir ailə faciəsidir" (5, s. 448-449).

Bu qısa arayışdan da göründüyü kimi, "Anşıbay batır və onun nəsli" silsiləsinə aid olan dastanların qəhrəmanları orta əsrlərdə tarix səhnəsində kifayət qədər aktiv olan şəxsiyyətlərdir. Anşıbay, Parpariya və Kuttıkayadan savayı, adları çəkilən bütün qəhrəmaanlar tarixi şəxsiyyətdirlər.

## ƏDƏBİYYAT


1. Qəhrəmanlıq salnaməsi – "Edigey" dastanı (noqay variantı) – I. Bakı, "Dədə Qorqud" elmi-ədəbi toplusu, 2017, №1
2. Kazak Destanları – IV. Kırım`ın Kırk Batırı. / çev. F.Türkmen, M.Ekici. – Ankara: Türk Dil Kurumu Yayınları, − 2007. − 1048 s.
3. Əхмəтжанов М. Нугай Урдасы: татар халкынын тарихи мирасы. Казан, Татар китап нəшрийяты, 2009
4. Жирмунский В. Народный героический эпос: Сравнительно-исторические очерки. Москва-Ленинград, Государственное издательство художественной литературы, 1962
5. Жирмунский В. Тюркский героический эпос. – Ленинград: Издательство «Наука» Ленинградское отделение, − 1974. − 728 с.
6. Меховский М. Трактат о двух Сарматиях. Москва-Ленинград, Издательство Академии Наук СССР, 1936
7. Олеарий А. Описание путешествия в Московию. Смоленск, Русич, 2003
8. Трепавлов В.В. История Ногайской Орды./ Отв. ред. М.А.Усманов. 2-е изд., испр. и доп.– Казань: Издательский дом «Казанская недвижимость», 2016. – 764 с.
9. Dèvid S.K. Baba Tűkli ès a Hattyúlány. Legitimizációs elemek az Edige című hőseposzban, Keletkutatás // A Kőrösi Csoma Társaság folyóirata, Szerkeszti Dávid Gèza ès Fodor Pál Birtalan Ágnes, Iványi Tamás ès Sudár Balázs közreműködèsèvel, − 2009. − ő. 23-36.
10. Каратаев А. Қырымның қырық батыры. https://vk.com/wall-38304529_307924


***AMEA Folklor İnstitutu, Türk xalqları şöbəsi**
***Filologiya üzrə fəlsəfə doktoru***
***ORCID: https://orcid.org/0000-0001-6130-7063***

**Gumru Shehriyar**

## THE SERİES OF EPİCS "ANSHİBAY BATYR AND HİS DESCENDANTS"

The series of epics "Anshibay Batyr and His Descendants" is the first of three links in the cyclization "Qırkh Batyr" (Forty Batyrs). The epics included in this series are dedicated to the heroes who came from the mangit lineage and in many cases are historical figures. The main core of the cyclization is the epic "Edigey". All the sagas that followed him were dedicated to people belonging to his lineage.

Thus, the saga of Edigey can be considered the main link connecting the other epics in the series. The first genealogy, which includes Edigey himself, begins with the Batyr Anshibay. The sagas attributed to him formed a cyclization among themselves. This cyclization included ten epic works.

**Keywords:** *cyclization, "Qırkh Batyr" (Forty Batyrs), Anshibay Batyr, Edigey, Karasay and Kazi, Orak and Mamay, Musakhan, Ismail, Tel Agys*.

**Гумру Шехрияр**

## СЕРИЯ ЭПОСОВ «АНШИБАЙ БАТЫР И ЕГО ПОТОМКИ»

Серия эпосов «Аншибай батыр и его потомки» является первым из трёх звеньев циклизация «Сорок батыров». Эпосы, вошедшие в эту серию, посвящены героям, происходившим из рода мангитов и во многих случаях являющимся историческими личностями. Основное ядро циклизации – сага «Едигей». Все последовавшие за ним саги были посвящены людям, принадлежащим к его родословной.

Таким образом, сага об Едигее может считаться основным звеном, связывающим остальные эпосы в ряду. Первая генеалогия, в которую входит сам Едигей, начинается с батыра Аншибая.

Приписываемые ему саги образовали между собой циклизацию. В эту циклизацию вошли десять эпических произведений.

**Ключевые слова:** циклизация, Сорок батыров, Аншибай батыр, Едигей, Карасай и Кази, Орак и Мамай, Мусахан, Исмаил, Тель Агыс.

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 20.10.2024**
**Son daxilolma tarixi:21.11.2024**